# ƏHMƏD İSAYEV FENOMENİ,

## *yaxud şərəfli yolun hekayəti*



Bizim zamanın tanınmış qələm sahibi, nüfuzlu jurnalist, ardıcıl və davamlı yaradıcılığını zəhmətinə güvənərək, istedadı ilə cilalayaraq əsərlərə, kitablara çevirən Əhməd İsayevin həyatdan ayrılmaq xəbərini ağır hisslərlə qarşıladım. Axı biz tələbə yoldaşı olmuşduq. Gəncliyimizin ən parlaq günləri, həyatın bizim üçün ən qayğısız anları, ən başlıcası, ömrün gözəl çağları birgə keçmişdi. Auditoriyalar, indi adlarını müqəddəs ünvanlar kimi xatırladığımız müəllimlərimiz, dövrün ədəbi-mənəvi mühitində əsas simalar olan sənətkarlarla görüşləmiz... birgə keçmişdi.

Görünür, sarsıntılar, itkilər insanın yaddaşı üçün zəlzələ gücündə təsirli olur. Əhməd İsayevin də həyatdan ayrılıq xəbəri mənə yaddaş sarsıntıları ilə müşayiət olunan anlar yaşatdı. Xəbəri eşitdiyim gündən bəri özümü çox rahatsız, əhvalımı gündəlik həyatımdan fərqli duyğularla pərişan görürəm.

Klassiklərdən kiminsə məşhur sözüdür: "Ölüm zənglərinin kimin üçün çalınması şərt deyil. Əsas odur ki, bu zənglər dünyanın itirdiyi bir insan üçün çalınır və deməli, bütövlükdə insanlıq üçün çalınır". Deyəsən, Heminqueyin "Əcəl zəngi" romanında verilmiş epiqrafın improvizəsi ilə yaddaşımda canlanan bu duyğuları elə Əhməd İsayevə də ünvanlayıram.

Böyük ənənələri yaradanlar, şəxsiyyətləri və yaradıcılıqları ilə bu ənənələri az qala məktəbə çevirib yaşadanlar bizdən ayrılırsa, deməli, təkcə ayrılanların doğmaları yox, dostları yox, və, əlbəttə ki, tələbə yoldaşları yox, bütövlükdə cəmiyyət itirir, insanlıq itirir.

Mənim "Əhməd İsayevi yaxşı tanıyırdım" deməyə, zənnimcə, haqqım çatır. Çünki tələbəlikdən sonra da onunla ünsiyyətli münasibətimiz - daha çox telefonla, ara-sıra görüşlərimizlə, müxtəlif tədbir və yığıncaqlarda qarşılaşmağımızla davam edirdi. Əhməd yaşlaşdıqca müdrikləşir, istedadının bütün imkanlarını, yazdığı, nəşr etdirdiyi kitabları ilə üzə çıxara bilirdi. Bu məni, əlbəttə, sevindirirdi. Amma daha çox məni sevindirən bir cəhətini elə bəri başdan qeyd etmək istəyərdim. Bu da tələbə yoldaşı kimi tanıdığım, hər vaxt şirin duyğularla xatırladığım gənc Əhmədin öz ilkinliyini, saflığını, dostlarına qarşı səmimi münasibətini qoruyub saxlamağı idi.

Hər birimizin taleyində zamanın dəyişməsi müəyyən təlatümlər yaratdı. Bir çoxlarının ruhlarında, düşüncələrində tərəddüdlər baş qaldırdı. Siyasi kataqlizmlər insanları qarşı-qarşıya gətirdi. Amma bütün bir qərinə ərzində, yəni sonuncu 30-35 il ərzində mən Əhmədi tanıdığım kimi gördüm. O müxtəlif siyasi təzyiqlərin təsiri altında sifətini dəyişmədi. Mənəvi harmoniyasını qorudu.

Görünür, hər bir insanın şəxsi həyatında kimliyini təyin edən əsas keyfiyyət var. Bunu hərə bir cür izah edə bilər. Ancaq mən əsas təyinedici kimi insanın bütövlüyünü daha üstün tuturam. İnsan təbiət etibarı ilə bütöv olanda həyatın gətirdiyi xırdalıqlara getməyəndə ucuzlaşmır, daha da daxilən böyüyür. Bir sözlə, böyük şəxsiyyət timsalı olaraq cəmiyyətdə qəbul olunur.

Əhməd İsayevin həyatı şəxsiyyət olmağın örnəyi kimi mənəvi mühitimizdə təqdir oluna bilər. O dövr (80-90-cı illər) özünün bir qədər qarışıq, bir qədər də ziddiyyətli təbiətinə uyğun olaraq hər birimizin yaddaşında silinməz izlər buraxıb. Azərbaycan jurnalistikasının Tofiq Rüstəmov, Firudin Rəsulov, Əli İldırımoğlu, Ziyəddin Sultanov kimi iriçaplı mətbuat xadimləri bu dövrün mahiyyətini, mənəvi mühitini öz yazılarında prinsipiallıqla əks etdirə bilirdilər. Və, əlbəttə, onlardan biri də zəngin yaradıcılığı ilə ön sırada görünən Əhməd İsayev idi.

Ötən əsrin son 20 ili Əhməd İsayevin həm həyatında, həm də yaradıcılığında xüsusi mərhələ olub. Təmsil etdiyi qəzetlər üçün operativ yazılar yazmaq, xəbərlər göndərmək, dövrün problemləri ilə bağlı müsahibələr təşkil etmək, onun gündəlik həyatının əsas ritmi idi. Amma Əhməd İsayevin təbiətindəki yaradıcılıq qaynarlığı onu daha əsaslı işlər görməyə sövq edirdi. Zəhmətkeşliyi, əsaslı baza biliklərinə sahib olması sayəsində tarixi tədqiqatlara girişir, bu amillər onu Azərbaycan xalqının kəskin mənəvi sınaqlara məruz qaldığı dövrlərdə zamanın üstünü örtmüş həqiqətləri üzə çıxarmaq yoluna sövq edirdi. Bu da əslində Əhməd İsayevin böyük ziyalı olduğunun əməli ilə təsdiqi idi.

Əlbəttə, mən bu qeydlərimdə xatirələrə də, Əhməd İsayevi tanıdığım zamandan üzü bəri baş vermiş olaylara onun münasibətini də yazıya gətirə bilərdim. Təkcə onu deyirəm ki, bizim oxuduğumuz qrupda görkəmli şair Davud Nəsib, yazıçı Nəsib Bayramoğlu kimi görkəmli ziyalılar təhsil almışdı(burada Tahirə Həsənzadə təvazökarlıq edir, özünün adını qeyd etmir, Tahirə Həsənzadə bu gün müasir mənəvi mühitimizdə xüsusi yeri olan ziyalıdır. Azərbaycan tarixinin ən maraqlı dövrlərini, xüsusilə, cümhuriyyət zamanımızın tarixi həqiqətlərini elmi-publisistik yazıları ilə işıqlandıran görkəmli tarixçi alimdir, tarix elmləri doktorudur - Ə.R.X). Təkcə elə bu adları xatırlamaq kifayət edər ki, bizim qrupumuz Azərbaycan mənəvi mühitində kimlərlə təmsil olunub. Söz yox ki, bu təmsil olunanların sırasında Əhməd İsayevin həm insan, həm də yaradıcı ziyalı olaraq xidməti danılmazdır.

Mən yaşımın şahidliyinə güvənərək ötən illəri yaddaşımdan birər-birər keçirməyə çalışıram. Əlbəttə, "çalışıram" deyirəm, amma hər şeyi olduğu kimi xatırlamaq və bir yazıda sözə gətirmək çox çətindir. Bu qeydlərdə mənim əsas məqsədim Əhməd İsayevin kimliyinə cəmiyyətin istəyinə uyğun olaraq işıq salmaqdır. Və bu yanaşmada Əhməd İsayevin həyatının göstəricisi olan xronikaya üz tutmamaq mümkün deyil. Ona görə də bundan sonrakı qeydlərimi Əhməd İsayevin həyat və yaradıcılığının əsas göstəricisi olan açıq ensiklopediya (vikipediya) faktlarına əsasən təqdim etmək istərdim, çünki açıq ensiklopediyadakı faktları daha mötəbər hesab edirəm. Axı açıq ensiklopediyanın bütün materiallarını Əhməd İsayevin öz sağlığında nəzər-diqqətindən keçirməsinə şübhə etmirəm. Beləliklə, oxuyaq: "İsayev Əhməd Məmməd oğlu (30 avqust 1940, Zaqatala rayonu - 26 dekabr 2021, Zaqatala - yazıçı-publisist, 1964-cü ildən Azərbaycan Jurnalistlər İttifaqının, 1992-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın əməkdar jurnalisti (1987), "Qızıl qələm" (1974), "Ustad" ali jurnalistika (1995), "Həsən bəy Zərdabi" (1996) və "Araz" (1999) ali ədəbi mükafatları laureatı, 2003-cü ildən AKTA-nın fəxri doktoru, 1992-ci ildən "Gəncə və gəncəlilər" Xeyriyyə Cəmiyyətinin sədri". Necədir, əziz oxucu? Bu həyat faktları bir insan ömrü üçün nələri deyir? Əlbəttə, bütün bunlar Əhməd İsayevin jurnalistlik fəaliyyətinə, yazıçılıq əməyinə verilən dəyərləri göstərən faktlardır. Bircə onu əlavə edirəm ki, Əhməd İsayev həm də ömrünün son illərinə qədər dövlətin qayğısı ilə əhatə olunub. Bu da məni xüsusilə fərəhləndirir, yəni insan öz əməyi ilə fədakarlıq göstərirsə və bu fədakarlıq qiymətləndirilirsə, məşhur şeirdə deyildiyi kimi "hələ yaşamağa dəyər".

Şübhəsiz, bu qeydləri oxuyan Əhməd İsayev fenomenini real həyati faktlar əsasında görmək, qavramaq istəyən oxucu daha geniş məlumat tələb edəcək.

Mən oxucu tələbini də, bir tələbə yoldaşı kimi mənəvi borcumu da, ümumiyyətlə, cəmiyyətin bizdən ayrılanlara ehtiram münasibətini də nəzərə alıb onun həyat yolunu göstərən məlumatı təqdim etməyə qızırqanmıram. Düşünürəm ki, Əhməd İsayev kimi ziyalıların həyatını müasir oxucu nə qədər yaxından öyrənsə, onu dəqiq tanısa, Azərbaycan mənəvi mühitini yaşadan ənənələri qorumaq bir o qədər asan olar. Ona görə də Əhməd İsayevin həyat yolunu göstərən mətnə müraciət etməyi özümə borc bilirəm. Çünki bu məlumat görkəmli jurnalistin hansı mühitdə dünyaya gəldiyini, harada böyüdüyünü, onun həyat yolunda boy artımını göstərən faktlardır: "Əhməd İsayev 30 avqust 1940-cı ildə Zaqatala rayonunun Suvagil kəndində anadan olub. Orta məktəbi bitirən kimi təsərrüfatda əmək fəaliyyətinə başlayıb. Suvagil kənd klubunda müdir işləyib. 1959-1965-ci illərdə Azərbaycan Dövlət Universitetində əvvəl qiyabi, sonra əyani oxuyub. Hələ tələbə ikən - 1963-cü ildən "Kommunist" qəzeti redaksiyasında işə başlayıb: kiçik ədəbi işçi, baş ədəbi işçi, şöbə müdiri olub. 1970-1990-cı illərdə Gəncə-Qazax bölgəsi üzrə xüsusi müxbir vəzifəsində çalışıb. 1990-1991-ci illərdə "Respublika" qəzetinin təşkilatçısı və ilk baş redaktoru olub. Bir müddət "Həyat" və "Səhər" qəzetlərində işləyib. 1995-ci ildən "Azərbaycan" qəzetinin bölgə müxbiridir.1957-ci ildən mətbuatda çıxış edir. Tarixi mövzulara, sənədli publisistikaya daha çox üstünlük verir. İki minədək qəzet və jurnal məqaləsinin, otuzdan çox kitabın müəllifidir. Jurnalist axtarışlarına əsasən 1985-ci ildə Leninqrad Sənədli Filmlər Studiyasında "Cəbhədən məktublar" adlı qısametrajlı film çəkilib, "Boş barılar" pyesi (1988) Gəncə Dövlət Dram Teatrında tamaşaya qoyulub. Hökumət nümayəndə heyəti və jurnalist qrupları ilə Türkiyədə (1974, 1992), Yunanıstanda (1977), Fransada (1985), Bolqarıstanda (1987), İngiltərədə (1994) olub. İtaliyada (1981) "Unita" qəzetinin festivalında və Misirdə (1995) beynəlxalq informatika kurslarında Azərbaycanı təmsil edib". Bu faktlar onun həm yaradıcılıq həyatına güzgü tutur, həm də ictimai fəaliyyətində nə qədər yorulmaz olduğunu göstərir. Həm də bu faktlar əsasında biz doğru olaraq belə bir qənaətə gəlirik ki, Əhməd İsayev kimi sadə bir qələm adamı öz yaradıcılığı ilə təkcə öz ölkəsində yox, həm də Avropanın bir çox aparıcı yaradıcılıq ocaqlarında tanınıb, onun sözünə, sənətinə dəyər verilib.

Bütün hallarda Azərbaycan müstəqillik qazanandan sonra Əhməd İsayevin adı Avropanın bir çox ədəbi məkanlarında hörmətlə çəkilirdi. Bunu onun həyatına aid olan faktlardan da görmək çətin deyil və artıq bu faktları biz təqdim etdik.

Əhməd İsayev jurnalistikanın həm ictimai, həm də praktiki mühitində həmişə üzdə olub. Onu yaradıcılığında təbliğ etdiyi motivlərin humanist mahiyyəti həmişə diqqət mərkəzində olmağa sövq edirdi.

Yorulmaz adam idi. Yazıdan, yaradıcılıqdan bezməyi yox idi. Bu da istər-istəməz zamanlar dəyişsə də, quruluşlar, siyasi sistemlər əvəzlənsə də, yaradıcılığının mənəvi kriteriyalarına görə Əhməd İsayevi diqqət mərkəzinə çəkirdi. Bəlkə də tanıdığım jurnalist - yazıçılar arasında Əhməd İsayev qədər məhsuldar olan, əməyi təqdir olunan müəllif çox azdır. Xronikada oxuyuruq: "Dəfələrlə yaradıcılıq müsabiqələrinin qalibi olub. 1986-cı ildə ona SSRİ Jurnalistlər İttifaqı tərəfindən "İlin ən yaxşı jurnalisti" adı verilib. Moskvada çıxan "Jurnalist" jurnalının üç dəfə (1977, 1981, 1982) xüsusi diplomunu alıb. Respublika Ziyalılar Cəmiyyəti İdarə heyətinin qərarı ilə (1999) "XX əsrin fəxri ziyalısı" diplomu, Qafqaz-Mediya ictimai birliyi tərəfindən "Peşəkar jurnalist" (2008) mükafatı verilib. 1970-ci ildə "Rəşadətli əməyə görə" və 2005-ci ildə isə "Tərəqqi" medalı ilə təltif edilib."Azərbaycan Respublikasının ictimai və mədəni həyatındakı böyük xidmətlərə görə" Azərbaycan prezidenti İlham Əliyevin 11 dekabr 2006-cı il tarixli sərəncamı ilə ölkə prezidentinin fərdi təqaüdünə layiq görülüb. Dəfələrlə Azərbaycan jurnalistlərinin, 1982-ci ildə isə SSRİ Jurnalistlər İttifaqının beşinci qurultayının nümayəndəsi olub. On altı il dalbadal Azərbaycan Jurnalistlər İttifaqının idarə heyətinə üzv seçilib". Dəyərli həyatdır. Zəhməti qiymətləndirilən həyatdır. Bircə o qalır ki, oxucular onun çap olunmuş kitablarının siyahısı ilə də tanış olsunlar: "Yeniliyin sorağında" (1967), "Biz yanmasaq" (1971), "Dağlar da baş əyir" (1979),"Göyərçin pərvazlanır" (1980), "Sevgi saxladı bizi" (1982), "Nə yaxşı ki, sən varsan" (1983), "Gxo dalğnıx boev" (1985), "Bir bulaq çağlayırdı" (1987), "Üsyan" (1989), "Gəncədən ucalan yol" (1992), "Əli bulağı" (1996), "Səni kim unudar?" (1999), "Nigaran qalma ana" (2001), "El ağsaqqalı" (2003), "Vaxtsız sönən üç ulduz" (2004), "İlisu Sultanı Daniyal bəy" (2005), "Gəncə şəhidləri" (2006), "Gəncə və gəncəlilər"(1991, 1998, 2002, 2008), "Saxurların gözü Suvagil" (2008). Bəlkə də, bu, Əhməd İsayevin həm çap olunmuş, həm də çap olunmamış kitablarının tam siyahısı deyil.

Əhməd İsayev jurnalist-yazıçı kimi titanik zəhməti sayəsində yaratdığı əsərlərlə (kitablarla) ədəbi-mənəvi mühitimizdə bizə yadigar qoymuş olduğu əbədi izini həmişə qoruyub saxlayacaq. Əhməd İsayev fenomeni yaşarıdır, çünki bu fenomen şərəfli həyatın hekayətidir.

Əhməd İsayev mənim tələbə yoldaşım idi. Düşünürəm ki, bu qeydləri elə həm də tələbə yoldaşlarının adından yazdım. Bu gün dünyada olmayanların ruhu şad olsun.

Düşünürəm ki, Əhməd İsayevin də ruhu şad olar.

*Tahirə* Həsənzadə
*tarix elmləri doktoru, dosent*
*10.01.2021*